AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ
AZƏRBAYCAN MİLLİ KİTABXANASI

Ümummilli lider Heydər Əliyevin anadan olmasının
93-cü ildönümünə həsr olunmuş

# KİTABXANA-İNFORMASİYA ELMİ: TƏDRİS VƏ TƏCRÜBƏDƏ YENİ ÇAĞIRIŞLAR

*Beynəlxalq elmi konfransın materialları*

*5 may 2016-cı il*
*Bakı, Azərbaycan*

**UOT 021-028**
**K 76**

**REDAKSİYA HEYƏTİ:**

| | |
|---|---|
| **Fərəh Əliyeva** | *Sənətşünaslıq üzrə elmlər doktoru, professor ADMİU-nun rektoru, (sədr)* |
| **Kərim Tahirov** | *tarix üzrə fəlsəfə doktoru, professor AMK-nın direktoru, (sədr müavini)* |
| **Məryəm Əlizadə** | *sənətşünaslıq üzrə elmlər doktoru, professor, ADMİU-nun Elm və yaradıcılıq işləri üzrə prorektoru, (sədr müavini)* |
| **Gülşən Əliyeva** | *filologiya üzrə elmlər doktoru, professor, ADMİU-nun Beynəlxalq əlaqələr və tərbiyə işləri üzrə prorektoru* |
| **Vasif Adilov** | *filologiya üzrə fəlsəfə doktoru, dosent ADMİU-nun "Kulturologiya" fakültəsinin dekanı* |
| **Aqşin Babayev** | *filologiya üzrə elmlər doktoru, professoru, ADMİU-nun "Ədəbi iş və ekran yaradıcılığı" kafedrasının müdiri* |

"Kitabxana-informasiya elmi: tədris və təcrübədə yeni çağırışlar" Beynəlxalq elmi konfransın materialları /ADMİU, Azərbaycan Milli Kitabxanası; Tərt. N. Abdullayeva -B.: ADMİU mətbəəsi, 2016.- 308 səh.

# M Ü N D Ə R İ C A T

## KİTABXANAŞÜNASLIĞIN AKTUAL PROBLEMLƏRİ

**Kərim Tahirov**
Gələcəyə çağırış və kitabxana fəaliyyətinin əsas istiqamətləri: prioritetlər və perspektivlər ........ 9

**Aybəniz Əliyeva-Kəngərli**
Elektron kitabxanalarin inkişafi : problemlər və perspektivlər ........ 15

**İradə Tuliyeva**
Kitabxana-informasiya axtarışının intellektuallaşdırılması yolları ........ 19

**Ədibə İsmayılova**
XXI əsrin informasiya məkanında oxuculara xidmətin əsas istiqamətləri, innovativ yeniliklərin tətbiqi təcrübəsi ........ 23

**Cavid Cəfərov**
Radiotezliklə identifikasiya, 4G və Web 3.0 texnologiyaları Azərbaycan kitabxanalarının informasiya marşrutunda ........ 26

**Gülşən Əliyeva**
Təbii və süni intellekt müasir kitabxana-informasiya prosesləri kontekstində ........ 40

**Nigar Babaxanova**
Beynəlxalq elektron kitabxana-informasiya resursları və onlardan istifadə problemləri ........ 43

**Əminə Cəfərova**
Azərbaycan ədəbi nümunələrinin beynəlxalq səviyyədə tədqiqində milli kitabxananin fəaliyyəti ........ 53

**Adilə Abdullayeva**
Kitabxanaçı kadrların peşəkarlığının artırılması yolları: müasir vəziyyəti və perspektivlər ........ 57

**Nərminə Abdullayeva**
İnformasiyalaşdırılmış cəmiyyətdə kitabxanaçılıq fəaliyyətində və təhsilində innovativ dəyişikliklər ........ 63

**Eldəniz Məmmədov**
İnformasiya cəmiyyəti və mütaliə ........................................ 70

**Kəmalə Məmmədova**
Kitabxana-informasiya marketinqi və onun Azərbaycan kitabxanalarında tətbiqi xüsusiyyətləri ........................................ 75

**В.П. Варакин, Н.Е. Калёнов**
Программный комплекс monitoring для статистического обеспечения задач управления ЦБС БЕН РАН ........................................ 78

**Светлана Александровна Власова**
Автоматизированные системы заказа издании в библиотеке по естественным наукам БЕН РАН ........................................ 85

**Aygün Hüseynova**
Avtomatlaşdırılmış kitabxana informasiya sistemlərinin kitabxanalara tətbiqi ............ 91

**Samirə Cəlilova**
Kitabxanaçıların peşə fəaliyyətinin artırılmasında "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun rolu ........................................ 95

**Tamilla Əsgərova**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində təhsil prosesinin kitabxana-iformasiya təminatinin müasir vəziyyəti və perspektivləri ........................ 100

**İlker Çakmakkaya**
Bilgi bilimleri ve kütüphanecilik çalışmalarında kuramsal ve kavramsal yaklaşımlar üzerine ........................................ 105

**Mehmet Kemal Sevgisunar**
Türkiye'de bilgi ve belge yönetimi ........................................ 110

**Елена Викторовна Кочукова**
Современные технологии в практике комплектования Библиотеки по Естественным Наукам РАН ........................................ 115

**Güler Demir, Ayşenur Güneş**
Eğitim sürecinde öğrenme stillerinin yeri ve önemi: Kütüphanecilik Alanı ............... 123

**Ayşenur Güneş, Güler Demir**
Bilgi ve belge yönetimi bölümlerinde aktif eğitim: Model önerisi ............................ 139

**Natiq Mürsəlov**
Müasir mərhələdə Azərbaycanda Dövlət Kitabxana siyasətinin istiqamətləndiyi sosial sahələr: nəzəri əsaslar və elmi-metodoloji təhlil .................... 151

**Yeganə Əhmədova**
Sumqayıt şəhərində əhaliyə kitabxana-informasiya xidmətinin müasir vəziyyəti və inkişaf istiqamətləri .................... 157

**Əfsanə Səfərova**
Mütaliə problemləri və elektron kitabxana .................... 162

**Elnur Nəzərəliyev**
Kitabxana və fasiləsiz təhsil (təhsilin təşkilində peşəkarlıq problemi) .................... 165

**Vəfa Məmmədova**
Akademik kitabxanalarda müasir informasiya fəaliyyətinin təşkili: ADA Universiteti kitabxanasının iş təcrübəsi əsasında .................... 169

**Könül Abdullayeva**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin kitabxanasında oxucularakitabxana informasiya xidməti .................... 174

**Səyyarə Məmmədova**
Məktəb kitabxanaçılarının fasiləsiz təhsili və kitabxana innovasiyaları sahəsində biliklərinin təkmilləşdirilməsi .................... 177

**Günel Bağırova-Hüseynova**
Heydər Əliyev irsinin təbliği sahəsində Azərbaycan Milli Kitabxanasının elektron resurslarının rolu .................... 181

**Günel Əhədova**
Azərbaycanda kitabxana işinin inkişafında Heydər Əliyev irsinin rolu .................... 184

## KİTABŞÜNASLIQ, BİBLİOQRAFİYAŞÜNASLIQ VƏ MULTİDİSSİPLİNAR TƏDQİQATLAR

**Gülbəniz Babaxanlı**
AMEA Hüseyn Cavidin ev muzeyində kitabşünaslıq üzrə aparılan elmi tədqiqatlar .. 189

**İmaməddin Zəkiyev**
Azərbaycan kitabının inkişaf yolu .................... 193

**Tahirə Həsənzadə**
Əlyazmalar institutunun elmi fondunda qorunan Hüseyn Azad Təbrizinin tərcümə əsərləri ...... 198

**Əli Əliyev**
Azərbaycanda ilk kitab kataloqu ...... 201

**Rübabə Şirinova**
XV əsr türk abidəsinin dünya kitabxanalarındakı nüsxələri ...... 207

**Adil Abdullayev**
Mətbuat tarixində xeyriyyəçilik hərəkatı ...... 215

**Aytən Hüseynova**
Mir Cəlalın əsərlərinin akademik və kütləvi nəşri ...... 224

**Anar Səfərli**
Miniatür bədii kitabı əyaniləşdirən vasitə kimi ...... 220

**Rəna Məmmədova**
"Tarixi-cahangüşai-nadiri"nin dünya kitabxanalarındakı nüsxələri ...... 230

**Xəyalə Hacıyeva**
"Müstəqilliyimiz əbədidir" çoxcildliyinin tərtibi xüsusiyyətləri və ümummilli lider Heydər Əliyevin Azərbaycan kitabxanaçılıq elminin inkişafında rolu ...... 235

**Mehriban Cəfərova**
İnformasiya cəmiyyətində biblioqrafiya işinin təşkili və veblioqrafiyalar ...... 242

**Aygün Hacıyeva**
Oxucuların informasiya təminatında Azərbaycan Milli Kitabxanasının cari biblioqrafik nəşrlərinin rolu ...... 248

**Təranə Rьstəmova**
Azərbaycan biblioqrafiyaюьnaslipinda yeni tendensiyalar ...... 252

**Arzu Çələbi**
"Qarabağ" göstəricisi diyarşünaslıq üzrə biblioqrafik resursun tərkib hissəsi kimi.... 254.

**Validə Həsənova**
Naxçıvan folkloru: biblioqrafik təhlil ...... 258

**Yasəmən Sadıqova**
Azərbaycan Milli Kitabxanasında arxeologiya və etnoqrafiya üzrə sənəd kütləsinin yerləşməsinin bəzi məsələləri ........ 262

**İradə Əliyeva**
Azərbaycanda ekologiya üzrə biblioqrafik resurslarin müasir aspektləri ........ 267

**Aysel Cabbarova**
Azərbaycanda Biblioqrafik fəaliyyətin meydana gəlməsi və inkişafı ........ 273

**Günel Hacıyeva**
Memarlıq və İnşaat sahəsinin kitabxana-informasiya təminatının təkmilləşdirilməsi yolları ........ 278

**Vüsal Məmmədov**
Azərbaycana aid internet resurslarda muğamla bağlı başlıca informasiya mənbələri ........ 282

**Aygün Səfərova**
Azərbaycanda kitabxanaların vahid biblioqrafik təsvir standartının tətbiqi problemləri və perspektivləri ........ 287

**Sevda Kərimova**
Biznes mühiti və elektron informasiya resursları ........ 291

**Günay Məmmədova**
"Vikipediya"- müasir, elektron ensiklopedik biblioqrafiya və istifadəsinə dair təkliflər ........ 295

**Sevil Əliyeva**
Dünya və Azərbaycan ədəbiyyatında multikultural dəyərlər ........ 298

**Hacı Qasımlı**
Azərbaycanda elmi kitabxanaların xarici ədəbiyyat üzrə nadir nəşrlər fondu diyarşünaslığa dair mühüm mənbə kimi ........ 302

**Ədibə İmaş qızı İsmayılova**
*Azərbaycan Milli Kitabxanası, Əməkdar mədəniyyət işçisi*
*Oxuculara xidmət işləri üzrə direktor müavini*
oxucuxidmet@anl.az

## XXI ƏSRİN İNFORMASİYA MƏKANINDA OXUCULARA XİDMƏTİN ƏSAS İSTİQAMƏTLƏRİ, İNNOVATİV YENİLİKLƏRİN TƏTBİQİ TƏCRÜBƏSİ

***Açar sözlər:*** *oxuculara xidmət, elektron kitabxana, virtual sifariş, elektron resurs, mobil kitab rəfləri.*

Respublikamızda avtomatlaşdırılmış kitabxana sistemlərinin tətbiqi istiqamətində ilk addımlar məhz Milli Kitabxana tərəfindən atılmışdır. Milli Kitabxana dünyanın ən böyük və zəngin kitabxanalarında daha çox tətbiq olunan müxtəlif funksional avtomatlaşdırılmış kitabxana sistemi VİRTUA proqramına malikdir. Kitabxana VTLS proqramının bütün modullarını almışdır. 2014-cü ildə Elektron Kitabxananın daha da optimallaşdırılması məqsədilə ORACLE əsasında işlənib hazırlanmış və bir neçə parametrlər üzrə axtarış aparılmasına imkan verən yeni CAMO proqramı alınaraq serverdə quraşdırılmışdır. Bu axtarış sistemi vasitəsilə müəlliflər, sərlövhələr, predmetlər, açar sözlər, simvollar və rubrikalar üzrə axtarış aparılması təmin olunmuşdur. Burada həmçinin müxtəlif məlumat bazaları üzrə - kitabların və dövri mətbuat materiallarının, ümumi və diyarşünaslıq kartotekalarının və digər analitik məlumat bazalarının materialları üzrə axtarış aparılması mümkündür. Artıq bu gün kitabxanaya gələn oxucular sayı yüzlərlə olan ənənəvi kataloq və kartotekalarda saatlarla axtarış aparmaq əvəzinə, kitab verilişi məntəqəsində quraşdırılan kompyuterlərə yaxınlaşaraq 2-3 dəqiqə ərzində Milli Kitabxananın fondunda olan istədikləri kitabı tapa bilir və sifariş edirlər. Elektron resursların yaradılması şöbəsi Elektron Kitabxananın bazasının zənginləşdirilməsi işini daima davam etdirir. Şöbədə müasir informasiya texnologiyasının tətbiq edilməsi, istifadə olunan qurğuların təkmilləşdirilməsi, yeni robot-skaynerin alınması, həmçinin proqram təminatının daha optimalları ilə əvəz edilməsi sayəsində elektron resursların hazırlanması sürəti xeyli artmışdır. Şöbədə elektron resursların keyfiyyətinin artırılması üçün kitabları özü skan edən xüsusi robot-skaner quraşdırılmışdır. Bu aparat kitabın skan olunması prosesini tam olaraq özü həyata keçirir və bir saat ərzində 2500-3000 səhifə skan etmək imkanına malikdir.

Qiymətli kitab fondlarının konservasiyasını həyata keçirmək üçün onların mikrofilmlərinin hazırlanması və mikrofilmləri oxumaq üçün avadanlıqlar, qrammafon vallarının CD disklərə və audio kassetlərə yazılmasını təmin edən müasir tipli qurğular və foneteka kabineti üçün avadanlıqlar Yaponiya dövləti tərəfindən Milli Kitabxanaya hədiyyə edilmişdir. Mikrofilmlərin mətninin xüsusi kompyuter yaddaşına köçürülməsinə imkan verən qurğu isə xüsusilə əhəmiyyətlidir, qiymətli kitabların və qəzet-jurnal dəstlərinin tam elektron mətnlərinin yaradılmasının sürətləndirilməsi işində böyük rol oynayır.

Bu gün kitabxanamızın oxucuları və eləcə də dünya miqyasında Azərbaycanla maraqlanan bütün insanlar Milli Kitabxananın saytı və elektron kataloqu vasitəsilə zaman və məkan problemi olmadan Milli Kitabxananın nəinki kataloq və fondlarına daxil olaraq ondan sərbəst istifadə edə bilirlər, hətta onun tammətnli elektron məlumat bazalarından da bəhrələnirlər.

Heydər Əliyev irsi, Zərifə xanım Əliyeva, Mir Cəlal Paşayev irsi, Mehriban xanım Əliyeva, Fikrət Əmirov, Bunları unutmaq olmaz.Qan yaddaşımız, Dağlıq Qarabağ müharibəsi, Xocalı, 31 Mart, Abuzər Xələfov, Nəsir İmanquliyev, Nizami Gəncəvi, M.Ə.Sabir, M.F.Axundzadə, Nəriman Həsənzadə, Qara Qarayev, Üzeyir Hacıbəyli, Azərbaycan Milli Kitabxanası 90, Azərbaycan teatrı 140, Elçin, Teymur Elçin və başqa elektron məlumat bazaları da bu gün oxucularımız üçün dəyərli mənbələrdir.

Elektron məlumat bazamız Avropa Elektron Kitabxanasına daxil edilmişdir ki, Milli Kitabxanamızın oxucuları ABŞ-ın Konqres Kitabxanasının, Avropa Birliyinin 48-dən çox ölkəsinin milli kitabxanasının və Rusiya Dövlət Kitabxanasının elektron məlumat bazalarına, habelə Rusiya Dövlət Kitabxanasının elektron dissertasiya fonduna birbaşa çıxış imkanı əldə etmişlər. Yəni, kitabxananın oxucuları Avropanın 50-dən çox kitabxanasının fondlarında və kataloqlarında birbaşa axtarış aparmaq imkanı əldə etmişlər. Eyni zamanda 50-dən çox Avropa ölkəsinin milli kitabxanasının oxucuları da Azərbaycan Milli kitabxanasının fond və kataloqlarından istifadə etmək imkanı qazanmışdır.

Elektron kitabxananın təkmilləşdirilməsi məqsədilə Milli Kitabxana tərəfindən xüsusi proqram hazırlanmışdır. Bu proqram vasitəsilə kitabların elektron resurslarına Milli Kitabxananın holoqramı vurulur, elektron resurs kodlaşdırılır ki, bu da elektron kitabxanada yerləşdirilən və müəllif hüquqları qorunan kitabların surətinin çıxarılmasına, elektron daşıyıcılarına köçürülməsinə imkan vermir. Hazırda Milli Kitabxananın Elektron Kitabxanasında 130 mindən artıq elektron resurs vardır və yaxın zamanda onların əksəriyyəti oxucular üçün açıq olacaqdır.

Bu gün Milli Kitabxana respublikanın bütün kitabxanalarına, eləcə də bütün oxuculara və internet istifadəçilərinə virtual rejimdə xidmət göstərir. Kitabxananın saytında "Virtual sifariş," Metodik xidmət" "Bizdən soruşun" və "Biblioqrafik sorğu" bölmələri yaradılmışdır. Ölkənin istənilən nöqtəsindən hər bir kitabxana işçisi, müxtəlif oxucular, istifadəçilər sorğularını sayt vasitəsilə Milli Kitabxanaya ünvanlayır və ən qısa müddətdə öz sorğularına cavab ala bilirlər.

Kitabxanaçının ən vacib keyfiyyətlərindən biri oxucunun vaxtına qənaət etmək, ona tez və vaxtında kitabxana - informasiya xidməti göstərməyi bacarmaqdır. Oxucuya tez və vaxta qənaət etməklə xidmət etmək kitabxanaçıdan kitabxana fondunu, kitabxana resurslarını, həmçinin kitabxananın məlumat-axtarış sistemlərini, kitabxana kataloqlarını, o cümlədən, elektron vasitələri, kitabxana-informasiya texnologiyasını dərindən bilməyi tələb edir. Kitabxananın Humanitar elmlər zalında artıq bir neçə ildir ki, azərbaycan və rus dillərində "Azərbaycan Respublikasının qanunvericiliyi" onlayn məlumat bazası oxucuların istifadəsinə verilmişdir. Müasir oxucu tələbinə cavab verən bu proqram oxucuların vaxta qənaət etmələrinə kömək edir. Kitabxana kataloqundan istifadə etmədən oxucu birbaşa məlumat bazasından istifadə edir. Bu bazanı www.qanun.info-(Azərbaycan dilində) www.consultinq.minimax.az- (Rus dilində) internet səhifəsinə daxil olmaqla əldə etmək olar.

Azərbaycan Milli Kitabxanası öz elektron fondunu genişləndirmək məqsədi ilə elektron kitabxananın xarici elektron informasiya ehtiyatları ilə komplektləşməsini oxucuların sorğusu əsasında həyata keçirərək zəngin axtarış imkanlarına malik, dünyanın və Rusiyanın aparıcı elibrary.ru elektron elmi kitabxanasının rusdilli informasiya ehtiyatlarına abunə olmuşdur. elibrary.ru platformasında Rusiyanın universal xarakterli (müxtəlif elm sahələrinə dair) elmi jurnallarının elektron versiyalarının tam mətnlərindən oxucuların istifadəsi məqsədi ilə kitab-

xananın elmi zallarında -Dövri mətbuat, Humanitar, Dəqiq və texniki elmlər zallarında, Lokal şəbəkədən istifadə üzrə oxu zalında olan kompyuterlər oxucuların istifadəsinə verilmişdir.

Bu gün oxucular qısa zaman ərzində daha çox informasiya əldə etmək istəyirlər.Bu baxımdan kompyuterlərin, telekommunikasiya sistemlərinin, surətçıxarma texnikasının kitabxana xidmətinə daxil edilməsi mühüm əhəmiyyət kəsb edir. Çünki yeni texnika və texnologiya kitabxana şəraitində sənədlərin asan və tez əldə edilməsinə kömək göstərməklə bərabər, həm də əldə edilən bir çox materialların ev şəraitində istifadəsinə imkan verir. Müasir tələblərə cavab verən Elektron resurslardan istifadənin təşkili bölməsində oxucu sorğusu əsasında çox qısa müddət ərzində ən çox istifadə olunan kitabların, dövri mətbuat nümunələrinin, dissertasiyaların elektron versiyaları yaradılır və surəti çıxarılaraq oxuculara verilir. Kitabların, dövri mətbuatın, dissertasiyaların elektron versiyalarının yaradılması rəqəmli fotoaparatlar vasitəsi ilə yerinə yetirilir. İstənilən ədəbiyyatın lazım olan səhifələri rəqəmli fotoaparat vasitəsilə çəkilir, işlənir, çap edilərək oxuculara verilir. Eyni zamanda həmin ədəbiyyatın tam elektron versiyaları yaradılaraq kitabxananın lokal kompyuter şəbəkəsinin məlumat bazasına daxil edilir. Bu da ondan gələcəkdə digər oxucuların da istifadə edə bilməsinə şərait yaratmış olur.

Milli Kitabxanada elektron kataloq, elektron kitabxana xidmətləri ilə yanaşı, oxucuya kitab verilişi prosesi də avtomatlaşdırılmışdır. Oxucu elektron bilet ilə avtomatik qeydiyyatdan keçir və elektron kataloqdan sifarişini verir. Oxucu hər hansı bir ədəbiyyatı sifariş etdikdə fondda quraşdırılmış e-mail vasitəsilə sorğu qəbul olunur, tələbnamə çap edilir və ədəbiyyat kitab verilişi məntəqəsinə çatdırılır. Oxucu elektron tablonu izləyərək ədəbiyyatın hansı zala göndərildiyini öyrənir və kitabı operativ əldə edə bilir.

Milli Kitabxanada fondların mühafizəsi üçün mühüm tədbirlər həyata keçirilir. 2014-cü ildən kitabxananın fondlarında müasir tipli mobil kitab rəflərinin quraşdırılması işlərinə başlanılmışdır. Tozu, rütubəti, işığı buraxmayan və qiymətli kitabların digər kənar təsirlərdən qorunmasına xidmət edən mobil kitab rəfləri eyni zamanda, yeni kitabların yerləşdirilməsi imkanlarının da iki dəfə artırılmasına kömək edir. Kitabxanada Avropa standartlarına uyğun işıqlandırma, havalandırma və rütubət rejimini tənzimləyən avadanlıqlar quraşdırılmış, qazla işləyən avtomatlaşdırılmış yanğın xəbərverici və yanğın söndürücü sistem quraşdırılaraq istifadəyə verilmişdir. Fondun xüsusi, mobil kitab rəflərində yerləşdirilməsi həm oxucuya xidmət işini yaxşılaşdırır, həm də kitab sərvətini mühafizə edir.

Bu gün Milli Kitabxanada modernləşmə işləri uğurla davam etdirilir.

**Adiba İsmayılova**

## THE MAIN DIRECTIONS OF READER SERVICES IN INFORMATION ENVIRONMENT OF THE XXI CENTURY, THE EXPERIENCE OF APPLYING INNOVATIONS

***Summary***

*The article provides information about the implementation of new service methods in recent years in the Azerbaijan National Library in order to cover information demands of users more rapid, complete and comprehensive and the creation of modern conditions in the separate reading-halls of the library both for research-scholars and for students, in order them to get the necessary literature.*

***Keywords:*** *Reader services, e-library, virtual order, electronic resource, mobile bookshelves*